# Zəfər paradı, həqiqət anı...

İllər boyu qanla sulandı torpağımız, sözlər, kəlmələr ürəyimizdə düyünlənib qaldı. Düşmən tapdağına dözmədi, Vətən övladı torpaq, namus, şan uğrunda qanını əsirgəmədi, bir oldu, birləşdi, bıçaq sümüyə dayananda bizim olanın özümüzə qaytarılması naminə canını fəda etdi. Axı, Vətəni sevmək qeyrətdəndir. Elə bu sevgi ilə Vətən üçün döyüşüb qalib olan Azərbaycan Ordusunun sırası heç pozulmadı, azad etdiyi torpaqların ruhunu qalibiyyət bayrağına hopdurub Azadlıq meydanına gətirdi. 2020-ci il 10 dekabr. Həqiqət anı, xeyirin şər üzərində qələbəsinin təcəssüm günü.

Azadlıq meydanı... Həmin gün bütün dünyanın gözü yenə də Azərbaycana dikilmişdi. Son on illərin böyük ağrı-acılarına şahidlik edən bu meydan başqa abhavada idi o gün. Əqrəblər dayanmadan irəliləyir, Vətən müharibəsində qələbəyə həsr olunmuş Zəfər paradının həyəcanlı anları yaxınlaşırdı.

Müxtəlif qoşun növləri meydan boyu səf-səf düzülüb. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev parad üçün sıraya düzülmüş qoşunları salamlayır. Vətən müharibəsində həlak olmuş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilir. Sonra dövlət başçısı çıxışa başlayır, Vətən müharibəsinin ilk saatlarından Azərbaycanın haqq işini dəstəkləyən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana, türk xalqına təşəkkürünü bildirir.

Bəli, Azərbaycan əsgəri gözü kimi sevdiyi Vətənini kirpik kimi qorudu. İllərdən bəri göstərilən siyasi qətiyyətin, möhkəm iradənin məntiqi nəticəsi olan Zəfər yolunda atılan addımlar bəhrəsini verdi. Ordumuzun ən müasir silah, sursat, hərbi avadanlıqlarla təminatını Qələbə üçün başlıca amil kimi diqqətdə saxlayan Ali Baş Komandan İlham Əliyev öz andına sadiq qaldı: "Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi".

**(davamı 6-cı səhifədə)**

# Zəfər paradı, həqiqət anı...



(əvvəli 2-ci səhifədə)

Bu meydan belə bir izdihamı 2018-ci il mayın 28-də də yaşamışdı, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illiyinə həsr olunmuş hərbi paradda. O zaman burada Türkiyə Respublikası Silahlı Qüvvələrinin parad heyətindən ibarət 4 min nəfərədək şəxsi heyəti iştirak edirdi. Hərbçilərə və qonaqlara müraciət edən Azərbaycan Prezidenti demişdi: "Bu gün, sözün əsl mənasında tarixi bir gündür, Türkiyə-Azərbaycan birliyi, Türkiyə-Azərbaycan qardaşlığı günüdür. Biz bu nəslin nümayəndələri bu günü yaşadırıq, yaşadacağıq. Bu gün bütün dünya görür ki, Türkiyə və Azərbaycan bir yerdədir, bütün dünya görür ki, bizim sarsılmaz dostluğumuz, qardaşlığımız əbədidir". Öz növbəsində Türkiyə Prezidenti də belə qeyd etmişdi: "Azərbaycanın sevinci, bizim sevincimizdir, qüruru bizim qürurumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir. Azərbaycan kədərlənərsə, biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik. Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsi bizim üçün də eyni dərəcədə ağrılı problemdir. Türkiyə olaraq problemin həlli üçün Azərbaycanın göstərdiyi səyləri sonadək dəstəkləməyə davam edəcəyik".

Belə də oldu. 2020-ci il sentyabrın 27-də ermənilərin növbəti təxribatlarının qarşısını almaq üçün əməliyyatlara başlayan Azərbaycan tərəfi bu mübarizəni sonadək davam etdirdi. Dövlət başçısı Təhlükəsizlik Şurasının iclasındakı çıxışında vurğulamışdı: "Bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, bu dəstəyi biz daim hiss edirik. Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır". Müharibənin ilk saatlarında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinə telefonla zəng edərək Ermənistanın hərbi təxribatı nəticəsində azərbaycanlı mülki şəxslərin və hərbi qulluqçuların həlak olması ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığı vermiş, Türkiyənin hər zaman olduğu kimi, Azərbaycanın yanında olduğunu vurğulamışdı. Və Zəfər paradında da Türkiyə Azərbaycanın yanında idi...

...Zəfər paradının başlamasına isə saniyələr qalır, nəhayət, o an yetişir. Dövlət başçılarının çıxışından sonra səslənən əsgər marşının sədaları ürəkləri riqqətə gətirir, Azərbaycan Ordusunun zəfər paradı başlayır. Xüsusi Təyinatlı Qüvvələrin hərbi qulluqçuları, dəniz piyadaları, Xarici Kəşfiyyat və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşları, Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları, Birinci, İkinci, Üçüncü, Dördüncü və Altıncı Ordu Korpuslarının, Raket və Artilleriya Qoşunlarının hərbi qulluqçuları, Dövlət Sərhəd Xidmətinin və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının parad heyətləri tribuna önündən keçir. Onların ardınca Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli qvardiyasının hərbi qulluqçuları, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin dinləyiciləri, Cəmşid Naxçıvanski adına Hərbi liseyin kursantları meydana daxil olur.

Zəfər paradının ən yaddaqalan anı... Düşməndən qənimət götürülmüş hərbi texnika Azadlıq meydanına gətirilir. Bu, XXI əsrin müharibəsini aparan Azərbaycan Silahlı Qüvvələrinin döyüş təcrübəsi, peşəkarlığı, Azərbaycan əsgərinin qüruru, məhvə məhkum edilmiş Ermənistanın "yenilməz ordu mifi"nin dağıdılması demək idi.

Bax, elə həmin gün Azadlıq meydanında nümayiş etdirilən, dağıdılmış və qənimət kimi götürülmüş texnika az sonra paytaxtımızda təşkil olunmuş Hərbi Qənimətlər Parkında yerləşdirildi. İndi bura gələnlər Silahlı Qüvvələrimizin döyüş məharətinin, iradəsinin şahidi olurlar...

Daha sonra Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin zirehli texnikası, artilleriya silahları, raket sistemləri, zenit-raket kompleksləri, özüyeriyən haubitsaları, yaylım atəşli reaktiv sistemləri, əməliyyat-taktiki raket kompleksləri, pilotsuz uçuş aparatları Azadlıq meydanına daxil olur. Bundan sonra isə Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu başlayır. Hərbi Dəniz Qüvvələrinə və Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinə məxsus döyüş gəmiləri dənizdən parada dəstək verir.

"Dəmir yumruq" adlı Zəfər paradı, nümayiş etdirilən ən müasir hərbi texnika, nizami ordu göstərdi ki, müharibədə beşinci nəsil hərbi texnikanın tətbiqi ilə düşmənə ölümcül zərbə vuran Azərbaycanın qarşısında dura biləcək qüvvə yoxdur. Bu tarixi missiyanı isə Azərbaycan əsgəri, giziri, zabiti icra etdi.

Müharibə başa çatandan sonra ölkə başçısının sərəncamları ilə onlar "Azərbaycanın Milli Qəhrəmanı" adına, orden və medallara layiq görüldülər.

2020-ci il dekabrın 10-da Azadlıq meydanında keçirilən hərbi parad da artıq tarixə dönüb. İndi hər dəfə o möhtəşəm görüntüləri izlədikcə yaxın tariximiz göz önündən gəlib keçir: 2016-cı ildə Aprel döyüşlərində düşmənə zərbə vuran, 2018-ci ildə Günnüt əməliyyatı ilə Ermənistanı Dağlıq Qarabağla birləşdirən magistral yola nəzarəti ələ keçirən Azərbaycan Ordusu 30 illik işğala son qoydu, qəhrəmanlıq dastanı olan Şuşa əməliyyatından sonra Ermənistan diz çökdü. Şuşanın azad olunması Qələbə sevincimizin tarixi Zəfər dastanı oldu. Ali Baş Komandanın dəmir yumruğu sonuncu dəfə bu şəhərdə düşmənə dərs verdi: "Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq". Ölkə başçısının bu sözləri isə rahat sabahımızın təminatı üçün bir vəddir.

Artıq Azərbaycan torpaqları azaddır, illərin həsrətindən sonra Tərtər çayının sularına qovuşub, Şuşanın dağlarının başındakı duman da artıq dərdli deyil, girov qalmış Xarıbülbül daha gözəl açır, Araz nəğməsini daha ürəkdən oxuyur. Bundan sonra Qarabağ şikəstəsi oxuyan nəfəslər daha güclü olacaq, Vətən nəğməsi ruhumuzu oxşayacaq:

*Deyirlər bülbülə çəmən yaxşıdır,*
*İnsançün laləzar Vətən yaxşıdır...*

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**

Respublika .- 2021.- 10 dekabr.- S.1;6.